# Ağdamda Qasım bəy Zakirin irsi anılmışdır



**Ağdam Muğam Mərkəzində "Qasım bəy Zakir və Qarabağ ədəbi-ictimai mühiti" mövzusunda elmi konfrans keçirilib.**

Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə baş tutan tədbirdə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, Milli Məclisin  deputatı Bəxtiyar Əliyev, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru Teymur Kərimli, filologiya elmləri doktoru, professor, Qasım bəy Zakir irsinin tədqiqatçısı Raquf Kərimov,  Xalq şairi Sabir Rüstəmxanlı, Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, idarə, müəssisə və təşkilatların rəhbərləri, Qasım bəy Zakir nəslinin və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Konfrans iştirakçıları öncə Ulu Ööndərin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək ruhuna ehtiramlarını ifadə etmişlər. Sonra görkəmli ədibin yaşadığı Xındırıstan kəndində iştirakçılar tərəfindən müxtəlif ağac və gül kolları əkilmişdir.

Konfransda çıxış edən natiqlər XIX əsr realist Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Qasım bəy Zakirin ədəbi irsinin xalqımızın mədəniyyət xəzinəsinə daxil olmasından, onun yaradıcılığında ana dilimizin imkanlarının dolğun əks etdirilməsindən, Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Qasım bəy Zakirin Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına salınmasından danışmışlar.

Tədbirin gedişində Qasım bəy Zakirin Azərbaycan Rəssamlar İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Aynurə Haşımova tərəfindən çəkilmiş portreti və tədbirdə iştirak edən alimlərin müxtəlif mövzulara aid kitabları rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənova təqdim edilmişdir.

Bədii hissədə Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiəti ilə Əməkdar artist Fehruz Səxavətin, kollecin müəllim və tələbələrinin ifasında müxtəlif musiqi nömrələri səslənmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.- 12 mart (№54).- S.13.